## F İ L O L O G İ Y A

UOT: 82-1.512.162.

**Gülşən Əliyeva-Kəngərli**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Filologiya elmləri doktoru, professor**
**e-mail: gulshenkengerli@mail.ru**

# AZƏRBAYCAN FƏLSƏFİ VƏ İNTELLEKTUAL POEZİYASINDA ƏLƏKBƏR SALAHZADƏ FENOMENİ

**Xülasə:** Azərbaycan fəlsəfi-intellektual şeiri müxtəlif fərdi üslublardan ibarət bədii fəlsəfi təmayüldür. Bu fərdi üslubları ortaq məxrəcə gətirən gerçəkliyin bədii fəlsəfi dərki, üslubda intellektual poetik sistemli ifadə tərzidir. Azərbaycan fəlsəfi-intellektual şeir təmayülünə daxil olan, onu yaradan şairlər sırasında Ələkbər Salahzadə önəmli yer tutur.

Ə.Salahzadə öz yaradıcılığı ilə XX əsri, II minilliyi yekunlaşdıran qeyri-adi istedad sahibi idi. O, ədəbiyyata namusla, qürurla və istedadla xidmət etdi. Ömrünün sonunadək üslubuna və şəxsiyyətinə sadiq qaldı.

**Açar sözlər:** fəlsəfi-intellektual şeir, Ə.Salahzadənin yaradıcılığı, psixoloji paralelizm, filosof şair.

Azərbaycan fəlsəfi-intellektual şeir təmayülünə daxil olan, onu yaradan şairlər sırasında Ələkbər Salahzadə önəmli yer tutur. Onun poeziyası ədəbi tənqid, nəzəri estetik fikir tərəfindən hələ açılmayıb, bədii-fəlsəfi sirri və sanbalı aşkara çıxmayıb. Ələkbər Salahzadə sözü son qətrə enerjisini alana qədər sıxma-boğmaya salır. Nüvəsinə çatmayana qədər sözdən əl çəkmir.

Bu şeir çoxcəhətli və zəngin palitraya malikdir: "söz-söz, rəng-rəng yanan Prometey, yanan Xirosima, məslək yolunda bir misra üstündə yanmaq" elə poeziyanın odunda yanmaq deməkdir. "Misra üstündə yanmaq" şairin özünə aiddir. Şair "mən"inin ifadəsidir. "Yer yana-yana Günəş olacaq!" – şeirin bu yekunu daha çox mənalıdır. Əslində şeir şair qəlbinin odundan yaranır.

Filosof şair Ələkbər Salahzadənin 2007-ci ildə çap olunmuş "Vaxt vadisi" adlı kitabına onun vaxtilə işıq üzü görmüş kitablarında – "Beş yarpaq" (1968), "Od heykəl" (1970), "Gözlər baxır dünyaya" (1979), "Xatirə çiçəyi" (1982),

"Yerimiz bir, göyümüz bir" (1986), "Od ocağı" (1989), "Yanıltmaclı əlifba" (1995) çap olunmuş şeirlərdən seçilmiş nümunələr və yeni şeirlər yer alır.

Bu parçada "Boy" şeirindən misal verilir. Şair insanın – lirik qəhrəmanın təbii boy atmasının gözəgörünməz psixoloji vəziyyətini mühakimə edir.

Görkəmli rəssam Səttar Bəhlulzadə zahirən də maraqlı adam idi. Poeziyamızda ona, ekzotik xarakterinə müxtəlif şeirlər həsr olunub. Ə.Salahzadə onun portretini özünəməxsus tərzdə yaradır:

*Yayılar yamac-yamac, yallı gedər çəmən-çəmən.*
*Əllərinin budaqları yarpaqlayar,*
*çiçək açar.*
*Əllərindən sellər axar.*
*Damarlı kötüyün pöhrələrində*
*yaşıllaşır təbiət.*
*Əncirdən iki koğuş -*
*iki göz çağlayıb axar dünyaya... (3; s. 10)*

Bu metaforaların ilk baxışda heç S.Bəhlulzadəyə dəxli yoxdur. Şair psixoloji paralelizm apararaq insan əlamətlərini təbiət predmetləri ilə əvəz edir: yayılar yamac-yamac, yallı gedər çəmən-çəmən, əllərini budaqları yarpaqlayar, əllərindən sellər axar – əslində predmetsiz insan görüntüsüdür. Maestro Niyaziyə həsr olunmuş "Niyazi" şeirində də eyni simvolik metafora yaradılır, şeirdə meditasiya dalğalanır:

*Bir ürəyin qanından,*
*Bir əlin torpağından,*
*qalxır.*
*titrək bir çubuq*
*Bir insan rişə-rişə,*
*bir insan əsəb-əsəb,*
*bir insan dalğa-dalğa,*
*axar çubuğa.*
*yaşamağa başlayır çubuq.*
*Budaqlardan bir orkestr sallanır,*

*titrəşir havada*
*səs şaxələri,*
*şimşək kimi.*
*sıyrılır çubuğundan,*
*Koroğlunun qılıncı. (3; s. 11)*

Rejissor çubuğu canlandırır, rejissorun özünə çevrilir, insan rişə-rişə qalxır çubuğa, budaqlardan bir orkestr sallanır, havada titrəşən səs şaxələrinin bədii xışıltısındakı harmoniyanı duyursan, çubuqdan sıyrılan misri qılıncı görürsən, bu qılınc havanı doğrayır, zamandan şırımlar açır. Ə.Salahzadə müxtəlif suallara cavab axtarır: Hardayam, harda? // Məndən ulduzacan, məndən Ayacan // Məndən Altayacan // Məndən o tayacan // Məndən özüməcən nə qədər yol var? O tay, Altay-türk torpaqlarıdır və şairin lirik qəhrəmanı məhz bu kontekstdə özünü dərk etməyə çalışır. Onun 60-cı illər zamanlı şeirləri özünüdərk, özünəqayıdış poeziyasıdır.

*Arada su*
*çala-çala şappıldadı.*
*bir at keçdi –*
*daş sükutu çala-çala. (3; s. 21)*

Bu qısa şeirdə uğurlu alliterasiya var. Şair səslərin uyğunluğunu yaradır, səslər arasında münasibətlər doğmalaşır: çala-çala çuxur çola mənasında, daş sükutu çala-çala – çalğı mənasında Ə.Salahzadə "Nəğmə" sözünü çox işlədir.

Onun lirik qəhrəmanı daşların fəryadını eşidən həssas bir insandır. Ə.Salahzadənin lirik qəhrəmanı səsdən-səsə, insanların, daşların fəryadına çatan mənən güclü bir insandır. O öz taleyini yaddaşda və daşda axtarır. Bu qəhrəman sükutun səsini eşidən, sükutun səsinə səs verən insandır ("Sükutdan səslər").

Ə.Salahzadə düşünən və düşündürən, filosof şair kimi insan ömrünün mənası üzərində düşünür.

*Bir də gördün beşikdi adam,*
*bir də gördün bəbədi.*
*Bir də gördün uşaqdı adam,*

*bir də gördün babadı.*
*Bir də gördün oğuldu adam,*
*bir də gördün atadı.*
*Bir də gördün yox oldu adam,*
*bir də gördün fotodu. (3; s. 43).*

Yayda ot çalınması kənddə hər il təkrarlanan iş – vərdişdir. Ancaq təbiətin dilinə bələd olan şair ot çalınması prosesini nəğmə kimi dinləyir, bu nəğmənin kədərli notlarını poetik sözün ixtiyarına verir: “Ot çalanlar”da –

*Ot çalınır,*
*İti-iti dəryazlardan od çilənir,*
*Ot çalınır,*
*yaş dəryazlar vıyıltıyla işıldayır,*
*yaşıl otlar*
*xumar-xumar xışıldayır.*
*ot çalınır,*
*Ot çalanlar bir orkestr*
*bir havanı tutub gedir.*
*Bir çiçəyin harayını,*
*bir vıyıltı udub gedir. (3; s. 45)*

Şair səslərin düzümünü, səslərin dözümünü sınaqdan keçirir: ot çalınır, od çilənir, vıyıltı (səs) – işığı saçır, bir çiçəyin harayını – bir vıyıltı udub gedir; haray və vıyıltı. Beləliklə, alliterasiya yaranır, oxucu insanın təbiətlə təmasını, təbiətə müdaxiləsinin şahidi olur.

Ə.Salahzadə şeirlərinin içində qarışıb itir, əriyir, onun şair “mən”i şeirlərində qabarıq görünür. O, zaman və insan münasibətlərini fəlsəfi kontekstdə həll etmək üçün körpü obrazından istifadə edir. Körpü insan – şairin obrazı – simvoludur.

*Keçmiş,*
*keçmiş bu körpüdən*
*Gələcək də keçəsidi.*

*Görün əsrin harasıdı*
*bəlkə vaxtın gecəsidi ?!*
*Bir körpüdü,*
*indi keçə bilmir*
*indi,*
*Keçə bilmir*
*Gündüz keçə bilmir.*
*Nədən, nədən,*
*Gələcək də indi olub,*
*Keçə bilmir bu körpüdən. (3; s. 80)*

Fəlsəfi-intellektual poeziyamızın korifeyi Rəsul Rzaya müasirləri – B. Vahabzadə, M.Araz, F.Qoca, F.Sadıq, C.Əlioğlu bir-birindən məzmunlu şeirlər həsr etmişlər. Ə.Salahzadə də ustada ehtiramını "Kim nə çəkdi", "Rəsul Rza" şeirləri ilə bildirib. Şeir R.Rzanın "Od nə çəkdi, küldən soruş" misrasının epiqrafı ilə verilir:

*İnsanın nə çəkdiyini nalə çəkir, haray çəkir,*
*Bilən varmı hardan çəkir, hara çəkir?*
*Kimsə bilmir*
*yol nə çəkir, iz nə çəkir.*
*Səs nə çəkir, söz nə çəkir.*
*Kim nə bilir – qan nə çəkir, can nə çəkir. (3; s. 100)*

Ə.Salahzadə öz yaradıcılığı ilə XX əsri, II minilliyi yekunlaşdıran qeyri-adi istedad sahibi idi. O, ədəbiyyata namusla, qürurla və istedadla xidmət etdi. Ömrünün sonunadək üslubuna və şəxsiyyətinə sadiq qaldı.

Ə.Salahzadənin yaradıcılığından bəhs edərək tənqidçi Şamil Salmanov 80-ci illərdə "Azərbaycan" jurnalında çap olunmuş məqaləsini "Narahat fikir ardıcı" adlandırmışdı.

*Bu sükutun sanki daş,*
*Sonra tunc dövrü olur.*
*Narahat zamanı yox,*

*Hər vaxt dinc dövrü olub.*
*Bu sükutun bəlkə də*
*Yaşından çox səbri var.*
*Qıy çək – tərpənməz,*
*Bəlkə ölüb -*
*Qəbri var? (3; s.123)*

Ə.Salahzadə mücərrəd yazır, hazırlıqlı oxucu üçün yazır. Bir vaxt – 70-ci illərdə ədəbi tənqid onun haqqında yazmışdır ki, Ələkbər Salahzadə şeiri quraşdırır. Belə fikir ona görə meydana çıxmışdır ki, o zaman sadə, heca vəznli qoşma və gəraylı tərzində – fəhlənin, kəndlinin asanlıqla başa düşəcəyi şeir tərzi dəbdə idi. Ələkbər Salahzadənin şeirləri isə meditasiya üzərində qurulan lirika idi. O ilk baxışda bir-birinə uyğun gəlməyən ovqat və predmetlər arasında bənzərlik və doğmalıq tapırdı.

*Mən küləyə necə deyim yanımdan ötmə,*
*Yalvarımmı qara bulud üstümdən çəkil.*
*Bir kimsənin kədərini duyarmı kefcil*
*Gülənə kim deyər kim: Göz yaşını sil*
*Daş atana niyə deyim:*
*Su at dalınca*
*Cık, cık:*
*Vaxt çiləyir saat dalınca.*

Ələkbər Salahzadə dünyaya, gerçəkliyə, başqa səmtdən, görünməyən tərəfdən baxır. Dünyanın ən qiymətli varlığı olan insana tərs üzündən nəzər salır. Bəzi şeirlərini oxuyanda inanmaq istəyirsən ki, o, formanı məzmuna zorla geyindirir. Adam onun bəzi şeirlərini oxuyanda nəfəsi təngişir:

*Sıxılıb qalmışam, yığılıb bəlkə,*
*Sınıxıb qalmısan gözlərimdə sən.*
*Ta səndən ikicə göz qalıb daha*
*Tamam gözlərimdəsən!*
*Üz-üzə, göz-gözə baxırıq bu dəm,*

*Birazdan sən məni tərk edəcəksən.*
*Eh, indi hələ də gözlərindəyəm,*
*Bəlkə gedən kimi qərq edəcəksən.*

Gözlər metaforik obrazdır. Poeziya min illərdir ki, gözlərdə olan gözəlliyin sirrini öyrənməklə məşğuldur. Azərbaycan klassik şeiri zaman-zaman gözləri kitab kimi oxuyub. Onun hüsnünə yüzlərlə poetik bənzətmələr işlədib. Ələkbər Salahzadə deyir ki: "Gündən, aydan, ulduzdan da\\ nəsə var o gözlərdə". Beləliklə, səmanın, kainatın bütün atributlarını sevgilisinin gözlərində görür. Gözlər insanı dünya ilə əlaqələndirən, yerdən səmaya atılan körpüdür.

Ələkbər Salahzadə şeirlərində insana qeyri-adi münasibət var. O, insanın təklənməsinin fəlsəfi mahiyyətini riyazi poetika ilə açır.

*Hesablayın məni, hesablayın,*
*Hər qazancım qazancımı.*
*Çox itkimi qazanc sayın.*
*Hesablayın məni, hesablayın,*
*Adamlar ələnib qalıb.*
*Aylarımdan, illərimdən*
*Adlar düşüb yaddaşımdan*
*əllər qopub əllərimdən*
*ağrısına gərək dözüm, tablayım,*
*hesablayın məni, hesablayın*
*bir iynəyəm, götürün*
*uzun-uzun yollarla*
*saplayın, hey saplayın.*
*Dünən sabah arası*
*Hesablayın məni, hesablayın.*

Beləliklə şair insan ömrünü, riyazi düstur halına salır, yaxud təsəvvür edir. "Çox işimdə məni bir tək mindən çıxın" – bu cür toplama çıxma özünüittiham aktı kimi çıxır. Bu əslində insanın özündən özünə gedən yoldur. Görəsən insanın üstəgəl işləri çoxdur, yaxud çıxılası işləri? İnsan heç özü özündən baş açmır. Ömrü, taleyi və dünyanı rəqəmlər və ölçülər idarə edir:

Nəyi, nədən, nə qədər çıxmaq! Ələkbər Salahzadənin çaşıb qaldığı poetik məntiq – sual budur!

Azərbaycan fəlsəfi-intellektual şeiri müxtəlif fərdi üslublardan ibarət bədii fəlsəfi təmayüldür. Bu fərdi üslubları ortaq məxrəcə gətirən gerçəkliyin bədii fəlsəfi dərki, üslubda intellektual poetik məntiqdən poetik sistemli ifadə tərzidir.

**Ədəbiyyat siyahısı:**


1. Allahyarov K. Azərbaycan şeir mədəniyyəti. Bakı, 1996,
2. Aristotel. Poetika. Bakı 1974, s. 63
3. Salahzadə Ə. "Vaxt vadisi", Bakı, 2007,
4. Salahzadə Ə. "Qobustan", B.. Beşik, 2009,
5. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. 2012, s. 301
6. Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı, 1984.


**Гюльшен Алиева – Кенгерли**

## ФЕНОМЕН АЛЕКПЕРА САЛАХЗАДЕ В АЗЕРБАЙДЖАНСКОЙ ФИЛОСОФСКОЙ И ИНТЕЛЛЕКТУАЛЬНОЙ ПОЭЗИИ

**Резюме:** Азербайджанская философско-интеллектуальная поэзия – это художественное философское направление, состоящее из различных индивидуальных стилей. Художественно-философское осмысление действительности, приводящее эти отдельные стили к общему знаменателю, есть стиль поэтического систематического выражения от интеллектуальной поэтической логики к стилю. Алекпер Салахзаде занимает важное место среди поэтов, вошедших и создавших азербайджанскую философско-интеллектуальную поэзию.

А.Салахзаде своим незаурядным талантом и творчеством, завершивший второе тысячелетие XX века. Он служил литературе с честью, гордостью и талантом. Он оставался верным своему стилю и индивидуальности до конца жизни.

**Ключевые слова:** философско-интеллектуальная поэзия, творчество А. Салахзаде, психологический параллелизм, философ-поэт.

**Gulshan Aliyeva – Kangarli**

## THE PHENOMENON OF ALAKBAR SALAHZADEH IN AZERBAIJANI PHILOSOPHICAL AND INTELLECTUAL POETRY

**Summary:** Azerbaijani philosophical-intellectual poetry is an artistic and philosophical direction consisting of different individual styles. The artistic and philosophical understanding of reality, which brings these individual styles to a common denominator, is a style of poetic systematic expression from intellectual poetic logic to a style. Alakbar Salahzadeh takes an important place among the poets who created the Azerbaijani philosophical-intellectual poetry direction.

A. Salahzadeh was an extraordinary talent who completed the twentieth century, the second millennium with his work. He served literature with honor, pride, and talent. He remained faithful to his style and personality until the end of his life.

**Key words:** philosophical-intellectual poetry, creativity of A. Salahzadeh, psychological parallelism, philosopher-poet.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 17. 01. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**Kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**